**2022-2023-cü tədris ili üçün məktəbəhazırlıq qruplarına qəbulla bağlı ən çox verilən suallar və onların cavabları**

**Sual: Elektron sistem vasitəsilə məktəbəhazırlıq qruplarına sənəd qəbulu hansı rayon və şəhərləri əhatə edir?**

**Cavab:** Ərizələrin onlayn qeydiyyatı ölkə üzrə bütün şəhər və rayonları əhatə edir.

**Sual: Məktəbəhazırlıq qruplarına uşaqların elektron sənəd qəbulu necə həyata keçirilir?**

**Cavab:** Məktəbəhazırlıq qruplarına uşaqların qəbulu https://mektebeqebul.edu.az elektron sistemi vasitəsilə həyata keçirilir.

**Sual: Məktəbəhazırlıq qruplarına hansı uşaqlar qəbul edilir?**

**Cavab:** Məktəblərdə təşkil olunmuş məktəbəhazırlıq qruplarına məktəbin yerləşdiyi ərazidə yaşayan və həmin ildə 5 yaşı tamam olan (2017-ci il təvəllüdlü) uşaqlar qəbul edilir. Yaşayış ərazisindəki məktəbdə məktəbəhazırlıq qrupu təşkil olunmadığı halda, uşaqlar digər məktəbdə yaradılan məktəbəhazırlıq qrupuna qəbul edilə bilər.

**Sual: Məktəbəhazırlıq qruplarına uşaqların elektron sənəd qəbulu hansı müddətlərdə həyata keçirilir?**

**Cavab:** Ərizələrin onlayn qeydiyyatı 2022-ci ilin avqust ayının 5-dən, məktəb seçimi ilə əlaqədar elektron sorğu yerləşdirmə prosesi Azərbaycan bölməsi üzrə avqust ayının 8-dən, tədris digər dillərdə aparılan bölmələr üzrə isə avqust ayının 11-dən başlanılır və proses sentyabrın 14-də yekunlaşır. Elektron ərizəsi qeydiyyata alınan şəxslər üçün sənədlərin məktəbə təqdim olunma müddəti 01 sentyabr 2022-ci il tarixdən başlayır, 26 sentyabr 2022-ci ildə başa çatır.

**Sual: Məktəbəhazırlıq qruplarına getməyən uşaqlar üçün hər hansı bir məhdudiyyət varmı?**

**Cavab:** Xeyr, məktəbəhazırlıq qruplarında təhsil icbari xarakter daşımır.

**Sual: Elektron ərizənin qeydiyyatı kim tərəfindən aparıla bilər?**

**Cavab:** Qeydiyyat valideyn (qanuni nümayəndə) tərəfindən aparıla bilər.

**Sual: Elektron sistemdən istifadə ödənişlidirmi?**

**Cavab:** Elektron sənəd qəbulu sistemindən istifadə üçün ödəniş tələb olunmur.

**Sual: Məktəbəhazırlıq qruplarında təhsil ödənişlidirmi?**

**Cavab:** Məktəbəhazırlıq qruplarında təhsil dövlət hesabına həyata keçirilir. Bu qruplar dövlət vəsaiti hesabına müvafiq təlim və metodiki vəsaitlərlə təmin edilir.

**Sual: Elektron sistemdə qeydiyyat zamanı istifadəçi hansı əlaqə vasitələrindən istifadə edə bilər?**

**Cavab:** Mobil telefon və elektron poçt ünvanı.

**Sual: Məktəblərin seçimi hansı qaydada aparılır?**

**Cavab:** Valideyn (qanuni nümayəndə) elektron sistemdə seçdiyi məktəbə sorğu yerləşdirməlidir.

**Sual: Məktəbəhazırlıq qruplarına qəbul üzrə müraciətlərin çox olduğu bəzi məktəblərdə şagird qəbulu hansı prioritetlər nəzərə alınmaqla aparılır?**

**Cavab:** Siniflərdə şagird sıxlığı və məktəbə qəbulla bağlı daha çox müraciət olunan bir sıra məktəblərdə məktəbəhazırlıq qruplarına onlayn qeydiyyat zamanı aşağıda qeyd olunan uşaqların məktəbə qəbulu üzrə üstünlük hüquqları təmin olunur:

• Valideyni ( (qanuni nümayəndəsi) və ya uşaq) qeydiyyat ünvanı üzrə həmin məktəb üçün müəyyən edilmiş ərazidə qeydiyyatda olanlar;

• Valideynləri (qanuni nümayəndələri) həmin məktəbdə işləyənlər;

• Bacısı və ya qardaşı həmin məktəbdə təhsil alanlar.

**Sual: Tədris digər dilllərdə aparılan bölmə üzrə məktəbəhazırlıq qruplarına sənəd qəbulu necə həyata keçirilir?**

**Cavab:** Məktəbəhazırlıq qruplarına uşaqların qəbulu zamanı valideyn digər dildə tədris aparılan bölməni seçdiyi zaman uşağın şifahi nitq bacarıqlarının qiymətləndirilməsinə ehtiyac yaranmır.

**Sual: Məktəbəhazırlığa sənəd qəbulu zamanı müsahibə önəm daşımır. Bəs, bu proses 1-ci sinfə qəbul zamanı prioritet xarakter daşıyacaqmı?**

**Cavab:** Bəli, uşağın məktəbəhazırlıq qruplarında təhsil almasından asılı olmayaraq tədris digər dillərdə aparılan I siniflərə qəbul zamanı şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üçün təşkil edilmiş müsahibədə iştirakı mütləqdir.

**Sual: Məcburi köçkün məktəblərini necə seçmək olar?**

**Cavab:** Məcburi köçkün məktəblərini seçən zaman yaşayış ünvanına uyğun rayon/şəhər seçib qeydiyyatdan keçmək lazımdır.

**Sual: Məcburi köçkün ailəsindən olan vətəndaşa dair məlumatlar tapılmırsa, nə etmək lazımdır?**

**Cavab:** Seçilmiş uşağın məlumatları "Vahid Aylıq Müavinətlə Bağlı Elektron İnformasiya Sistemi"ndə tapılmırsa, vətəndaş şəxsi kabinetin əlaqə bölməsindən müraciət etməlidir.

**Sual: Bakı şəhəri üzrə məktəbəhazırlıq qruplarına qəbul zamanı paytaxtda daimi qeydiyyatı olmayan, kirayədə yaşayan vətəndaşlar uşaqlarını elektron sistemdə qeydiyyatdan necə keçirə bilərlər?**

**Cavab:** Bakıda ərazi prinsipi tətbiq olunan məktəblərdə, ilk növbədə, həmin təhsil müəssisələrinin mikroərazisində daimi qeydiyyatda olan vətəndaşlar övladlarını elektron sistem vasitəsilə qeydiyyatdan keçirə bilərlər. Həmin valideynlərə müvəqqəti və ya qeydiyyatsız yaşadıqları ərazidə yerləşən məktəbdə sıxlıq olduğu halda, digər məktəbləri seçmələri tövsiyə olunur. Onu da qeyd edək ki, kirayədə yaşayan valideynlər ərazi prinsipi tətbiq olunmayan bütün məktəblərdə övladlarını məktəbəhazırlığa elektron sistem vasitəsilə qeydiyyatdan keçirə bilərlər.

**Sual: Elektron qeydiyyat zamanı bir neçə məktəb seçmək mümkündürmü?**

**Cavab:** Xeyr. Valideynə yalnız bir məktəb seçərək sorğu yerləşdirmək imkanı yaradılır.

**Sual: Valideyn məktəb seçdikdən sonra fikrini (seçimini) dəyişə bilərmi?**

**Cavab:** Valideyn şəxsi kabinetə daxil olaraq yerləşdirilmiş sorğunu silib yenidən məktəb və müəllim seçə bilər.

**Sual: Hansı halda valideyn elektron sorğusunu ləğv edib başqa məktəb seçimi edə bilməz?**

**Cavab:** Valideyn məktəb tərəfindən sistemdə təsdiq vurulduqdan sonra sorğusunu ləğv edə bilməz. Yalnız məktəb tərəfindən sistemdə imtina düyməsi vurulduğu halda başqa məktəb seçimi edə bilər.

**Sual: Qeydiyyatdan keçdikdən sonra uşaqların məktəblərdə müsahibəyə cəlb olunması və ya onların ümumi psixoloji durumunun müəyyənləşdirilməsi üçün müvafiq söhbətlər aparılacaqmı?**

**Cavab:** Valideyn (qanuni nümayəndə) məktəbəhazırlıq qruplarına uşaqların qəbulu üçün uşağın mübadilə vərəqini (sağlamlığı haqqında tibbi arayışı (forma 26U))

məktəbə təqdim etdiyinə görə uşağın psixoloji durumunun müəyyənləşdirilməsinə ehtiyac yaranmır.

**Sual: Məktəbəhazırlıq qruplarına uşaqların qəbulu üçün hara və hansı sənədlərin təqdim edilməsi tələb olunur?**

**Cavab:** Valideyn (qanuni nümayəndə) məktəbəhazırlıq qrupuna qəbul üçün aşağıdakı sənədləri məktəbə təqdim etməlidir:

• Azərbaycan Respublikasının vətəndaşları üçün - valideynin şəxsiyyətini təsdiq edən sənədin və uşağın şəxsiyyət vəsiqəsinin əsli və surəti;

• Azərbaycan Respublikasının vətəndaşlığını sonradan almış və övladının doğum haqqında şəhadətnaməsi əvvəllər vətəndaşı olduğu ölkə tərəfindən verilmiş şəxslər üçün Azərbaycan Respublikasının 16 yaşına çatanadək vətəndaşa verilən şəxsiyyət vəsiqəsi və ya xarici ölkənin doğum haqqında şəhadətnaməsi;

• xarici ölkə vətəndaşları üçün - valideynin xarici pasportu, Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi (olduğu təqdirdə), uşağın doğum haqqında şəhadətnaməsinin əsli və surəti;

• digər ölkələrin vətəndaşları olan, qaçqınlıq statusu almış şəxslər üçün Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşləri üzrə Ali Komissarlığının Himayə Sənədi;

• uşağın sağlamlığı haqqında tibbi arayışı (forma 26U);

• 2 (iki) ədəd 3x4 ölçüdə rəngli fotoşəkil;

• valideynin (qanuni nümayəndənin) www.mektebeqebul.edu.az saytında yaradılmış "Şəxsi kabinet"indən çap olunmuş "Ərizə".

**Sual: Uşaq hansı halda məktəbəhazırlıq qrupuna qəbul olunmaya bilər?**

**Cavab:** İlk növbədə, məsul şəxs https://mektebeqebul.edu.az/az/ saytından elektron qeydiyyat zamanı valideynin (qanuni nümayəndənin) özü və uşaq haqqında daxil etdiyi məlumatları təqdim olunan sənədlərin əsli ilə üzləşdirərək yoxlayır və həmin sənədlərin surətini saxlayaraq, əslini dərhal valideynə (qanuni nümayəndəyə) qaytarır. Sənəd qəbulu üzrə məsul şəxs tərəfindən tələb olunan sənədlərin müvafiq tələblərə uyğun olmadığı aşkar edildikdə (elektron ərizə qeydiyyatı zamanı məlumatların

biləkdən saxtalaşdırıldığı halda) və təhsil qanunvericiliyinin tələblərinin pozulduğu digər hallarda uşaq məktəbəhazırlıq qrupuna qəbul olunmaya bilər.

**Sual: Məşğələlərin müddəti necə müəyyən olunur?**

**Cavab:**

• Həftədə 4 gün olmaqla, 12 məşğələ;

• Bir gün ərzində 3 məşğələ;

• Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə;

• Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir.

**Sual: Məktəbəhazırlıq qruplarında hansı dərs məşğələləri tədris olunacaq?**

**Cavab:** Məktəbəhazırlıq qruplarında "Ətraf aləmlə tanışlıq", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Bədii təfəkkürün inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Musiqi" və "Fiziki mədəniyyət" dərs məşğələləri tədris ediləcək.

**Sual: Məktəbəhazırlıq qruplarında məktəbli forması tətbiq edilirmi?**

**Cavab:** Məktəbəhazırlıq qruplarına cəlb olunan uşaqlar üçün məktəbli forması tətbiq edilmir.

**Sual: Məktəbəhazırlıq qrupları bütün şəhər və rayonlarda fəaliyyət göstərəcək?**

**Cavab:** Məktəbəhazırlıq qrupları ölkənin bütün şəhər və rayonlarında fəaliyyət göstərəcək.

**Sual: Məktəbəhazırlıq qruplarına qəbulla əlaqədar sual yarandıqda hara müraciət etmək olar?**

**Cavab:**

• Sual (məlumat) xarakterli müraciətləri Təhsil Nazirliyinin rəsmi "Whatsapp" (994512067848) xidmətinə yazmaqla və ya Bakı şəhərində yerləşən məktəbəqədər təhsil müəssisələri ilə bağlı (146-1); ümumi qeydiyyat məsələləri ilə bağlı Çağrı Mərkəzinə (146-6) zəng etməklə;

• Elektron (yazılı) müraciətləri (təklif, ərizə, şikayət) **PORTAL.EDU.AZ** platformasında qeydiyyatdan keçərək "Vətəndaş müraciətləri" bölməsindən şəxsi kabinet vasitəsilə Təhsil Nazirliyi və tabe qurumlara elektron qaydada göndərməklə;

• Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzinə (Nərimanov rayonu, Əbdüləzəl Dəmirçizadə küçəsi 5) yaxınlaşmaqla;

• Elektron ərizənin qeydiyyatı ilə əlaqədar şəhər və rayon ərazisində fəaliyyət göstərən Alternativ Qeydiyyat mərkəzlərinə (siyahı təqdim olunacaq);

5 saylı Bakı “ASAN xidmət” mərkəzinə;

7 saylı Bakı “ASAN xidmət” mərkəzinə;

Proqramın əlaqə bölməsinə;